# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# QƏRAR

**“Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və “Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 14 sentyabr tarixli 200-VI FR nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 25 dekabr tarixli 6-VII FR nömrəli Fərmanının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

“Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və “Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 14 sentyabr tarixli 200-VI FR nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 25 dekabr tarixli 6-VII FR nömrəli Fərmanının 4.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 5 sentyabr tarixli 69 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında inzibati orqanların Təsnifatı”nın II bölməsinin 13.1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“13.1. Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti”.

2. “Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 28 fevral tarixli 20 nömrəli Qərarının 1-ci hissəsinin “Kollegiyanın üzvləri:” bölməsi aşağıdakı redaksiyada verilsin:

“Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının rəhbəri

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının Ekoloji siyasət və təşkilati protokol şöbəsinin müdiri

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının Ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən istifadənin təşkili şöbəsinin müdiri

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəisi

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı və Biomüxtəlifliyin Qorunması İdarəsinin rəisi

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Geologiya və Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi" publik hüquqi şəxsin İdarə Heyətinin sədri

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Dövlət Ekoloji Ekspertiza Agentliyi" publik hüquqi şəxsin İdarə Heyətinin sədri."

3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 may tarixli 43 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın 5-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 6-cı və 7-ci bəndlər əlavə edilsin:

"6. "Dövlət Ekoloji Ekspertiza Agentliyi";

7. "Təhlükəli Tullantı Poliqonu" Məhdud Məsuliyyətli Cəmiyyəti.".

4. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Ceyhun Cəlilov**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, " 16 " " may " 2025-ci il

№ 31